Şəxsiyyət vəsiqəsinin nömrəsi və PİN-kodu vəsiqənin fotoşəkil olan üzündə yerləşir. Vəsiqənin nömrəsi 8 rəqəmdən, PİN kodu isə 7 simvoldan ("İ" və "O" hərfləri istisna olmaqla ingilis əlifbasının hərflərindən və rəqəmlərdən) ibarətdir. Vəsiqənin PİN-kodunu axırıncı sətirdə çap edilmiş son səkkiz simvolun ilk yeddisi təşkil edir. Misal üçün, şəkildəki şəxsiyyət vəsiqəsində qırmızı çərçivəyə alınmış 7 simvol ("1543CSM") PİN-koddur, sonuncu simvol isə, yəni "7" rəqəmi, nəzərə alınmır.

Şəxsiyyət vəsiqəsinin 2 növü vardır:

1) 16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsi;
2) 16 yaşına çatdıqdan sonra vətəndaşa verilən şəxsiyyət vəsiqəsi.

16 yaşına çatmamış vətəndaşlara şəxsiyyət vəsiqəsi aşağıdakı sənədlər əsasında verilir:

ərizə-anket ;

1. doğum haqqında şəhadətnamə;
2. qan qrupu haqqında tibbi arayış;
3. valideynlərdən birinin və ya qanuni nümayəndənin hüquqlarını təsdiq edən sənəd.